# Babakişiyev Rasim Calal oğlu



Azərbaycan Respublikası Memarlar İttifaqının Peşəkarlıq etikası Kollegiyasının sədri **Babakişiyev Rasim Calal oğlu** 1956-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. 1979-cu ildə Azərbaycan İnşaat Mühəndisləri institutunun memarlıq fakultəsini bitirib və Bakı şəhər Xalq Deputatları Sovetinin Xüsusi Layihə Smeta bürosunda işə başlayıb. 1983-1988-ci illərdə Ticarət və İctimai İaşə Müəssisələrinin Layihələndirilməsi üzrə Dövlət institutunda Qrup rəhbəri; 2002-2013-cü illərdə “AzExCo” şirkətinin baş direktoru; 2015-ci ilin iyun ayından “AMİ PROYEKT” yaradıcı memarlıq layihə birliyinin baş direktorudur.

Rasim Babakişiyev bir cox maraqlı layihələrin müəllifidir: Bakıda – Bakı-Səlyan şossesinin 14-cü kilometrində Beynəlxalq terminal kompleksinin layihəsi, “RAMADA” mehmanxanasının layihəsi və s.: Memarlıq qoruğu “İçəri şəhər”də – “Old City” və "Bürc" restoranlarının layihəsi, “Şah Palas” mehmanxanasının layihəsi və s.; Gəncədə “RAMADA PLAZA” mehmanxanasının layihəsi, Göygöl şəhərində İcra Hakimiyyətinin binasının layihəsi, Şəki şəhərində “Şəki Palas” mehmanxanasının layihəsi və s.

Memarlıq fəaliyyəti zamanı dəfələrlə respublika və beynəlxalq memarlıq müsabiqələrində qalib olmuşdur.

1986-cı ildən Azərbaycan Memarlar İttifaqının üzvüdür. 2008-ci ildə “Ustad Memar” yüksək peşəkarlıq dərəcəsinə layiq görülmüşdür. 2012-ci ildə Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən “Tərəqqi” medalı ilə təltif edilmiş, 25 noyabr 2016-cı ildə ona Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən “Əməkdar memar” fəxri adı verilmişdir.

2017-ci ildən Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professorudur.